

# Ərazi bütövlüyünün bərpası bizim bir nömrəli vəzifəmizdir

***Ermənistan silahlı qüvvələri tərəfindən oktyabrın 17-də gecə saat 01:00 radələrində döyüş bölgəsindən tamamilə kənarda yerləşən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə raket zərbələri endirilib. Nəticədə, yaşayış evlərinə düşən raketlər həmin evləri tamamilə dağıdıb, sakinlər dağıntılar altında qalıb. Təcavüzkarın beynəlxalq hüququn norma və prinsiplərini, habelə humanitar atəşkəs rejimini kobudcasına pozaraq yenidən Gəncə şəhərini raket atəşinə tutması nəticəsində 13 nəfər həlak olub, 40-dan çox şəxs yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.***

Prezidenti İlham Əliyev oktyabrın 16-da Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində, həmçinin oktyabrın 17-də Azərbaycan xalqına müraciətində Ermənistan ordusunun humanitar atəşkəsə baxmayaraq, döyüş gedən ərazilərdən kənarda yaşayış məntəqələrini, mülki şəxsləri, sosial infrastrukturu hədəfə alması erməni faşizminin növbəti təzahürü kimi ifadə edib. Eyni zamanda, işğalçıların adətən döyüş meydanında məğlubiyyətə uğrayanda bu cür terror törətmələrini diqqətə çatdırıb.

Xatırladaq ki, ordumuz tərəfindən həyata keçirilən uğurlu əks-hücum əməliyyatları bu gün də davam etdirilir. Düşmənə endirilən sarsıdıcı zərbələr nəticəsində həm canlı qüvvə, həm də texnika baxımından böyük itkilər verən Ermənistan ordusunun əsgərləri geri çəkilərək döyüş mövqelərini qoyub qaçırlar. Bununla yanaşı, işğalçı döyüşdə uduzduğunu anladığına görə, təxribatlara əl atmaqla, mülki vətəndaşlarımızı atəşə tutmaqla, infrastrukturumuzu dağıtmaqla qeyri-insani xislətini, beynəlxalq hüquqa, ali bəşəri dəyərlərə zərrə qədər də olsun hörmət etmədiyini bir daha təsdiqləyir. BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dörd qətnaməsinin heç birini yerinə yetirməyən Ermənistan hazırda mülki insanları atəşə məruz qoymaqla yeni-yeni cinayətlər törədir. Lakin terrorçu dövlət Azərbaycan Ordusunun bundan sonra da erməni faşizminin layiqli cavabını verəcəyini və onu etdiyi hər cinayətə, vəhşiliyə görə cəzalandıracağını bilməlidir.

Gəncəni, eləcə də digər yaşayış məntəqələrimizi atəş altında saxlayan Ermənistanın terrorçu və anti-insani mahiyyəti işğalçı ölkənin yalnız Azərbaycan üçün deyil, bölgədəki hər bir dövlət üçün təhdid və təhlükə mənbəyi olmasından xəbər verir. Ona görə də region dövlətləri tərəfindən də bu, aydın dərk edilib qiymətləndirilməlidir. Onlar əmin olmalı və anlamalıdırlar ki, qonşu dövlətlərə qarşı davamlı şəkildə ərazi iddiaları irəli sürən, ərazisində terror təşkilatları yerləşdirən Ermənistan təkcə Azərbaycana deyil, həm də bölgə üçün böyük təhlükədir. Region dövlətlərinin ölkəmizin haqq işini tam dəstəkləmələri, terrorçu, faşist Ermənistana isə təzyiq göstərməklə onun neytrallaşdırılmasına nail olmaları günün zəruri məsələsidir. Hazırda bölgədə sülhü və təhlükəsizliyi tam şəkildə gerçəkləşdirməyin yeganə yolu da məhz budur.

Azərbaycan Prezidenti müsahibəsində mənfur qonşumuz Ermənistanın terrorçu, faşist mahiyyətini birinci Qarabağ savaşında da mülki şəxslərə atəş açmaqla, Xocalı soyqırımını törətməklə nümayiş etdirdiyini vurğulayıb. Dövlətimizin başçısı daha sonra deyib: "Artıq döyüş meydanında Azərbaycan Ordusu qarşısında acizdirlər və işğal edilmiş torpaqlarda bizə qarşı müqavimət göstərə bilmirlər, onlar yenə də mülki vətəndaşları hədəfə aldılar və namərd hücum nəticəsində bizim insanlarımız həlak oldular, həm Gəncədə, həm də dünən Tərtərdəki qəbiristanlıqda. Bu insanların dəfn mərasimində iştirak etdikləri bir yerdir, hər bir insan üçün müqəddəs bir yer sayılır. Ancaq bizim mənfur qonşularımız üçün müqəddəs anlayışı görünür ki, yoxdur. Bu, insanlığa qarşı cinayətdir, bir daha Ermənistanın yırtıcı xislətini göstərir. Ancaq bir də onu göstərir ki, bu namərd hücumlar bizi yolumuzdan döndərə bilməz, Azərbaycan xalqının iradəsini qıra bilməz. Biz öz ərazi bütövlüyümüzü bundan sonra da bərpa etməyə davam edəcəyik".

Dövlətimizin başçısı müsahibədə vurğulayıb ki, düşmənin cəbhə bölgəsindən kənarda yerləşən yaşayış məntəqələrimizi, dinc sakinləri atəş altında saxlanmasının, sosial infrastrukturu dağıtmasının bir səbəbi də əhali arasında panika, qorxu yaratmaq və bununla da Azərbaycan Ordusunu dayandırmaq, çirkin niyyətinə çatmaqdır: "Ancaq görürlər ki, bu, alınmır və nə qədər mərmi düşürsə-düşsün Azərbaycan vətəndaşları öz torpağında qürurla yaşayırlar və bütün bu çətinliklərə dözürlər. Vətəndaşlarımızı birləşdirən bir amal var – Qarabağın qaytarılması, Azərbaycan bayrağının işğal edilmiş bütün torpaqlarda qaldırılması və ərazi bütövlüyümüzün bərpa edilməsidir".

***(ardı 2-ci səhifədə)***

Xalq qəzeti 2020.- 18 oktyabr.- S.1;2.

# Ərazi bütövlüyünün bərpası bizim bir nömrəli vəzifəmizdir



*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyevin müsahibəsində diqqətçəkən bir məqama da toxunmaq istərdik. Jurnalistin Azərbaycanın Dağlıq Qarabağ uğrunda haqlı mübarizəsində Qərbin səssiz qalması, susması ilə bağlı sualına dövlətimizin başçısının "Biz bunu birinci Qarabağ savaşında da gördük. Ermənistan bizə təcavüz etdi, Ermənistan bizim torpaqlarımızı işğal etdi, Ermənistan bizim xalqımıza qarşı soyqırımı törətdi, ancaq sanksiyalar Azərbaycana tətbiq edildi. O zaman – 1992-ci ildə, 1993-cü ildə Qərb mətbuatında belə bir təsəvvür yarandı ki, sanki Azərbaycan işğalçıdır, Azərbaycan təcavüzkardır, Ermənistan isə bu təcavüzün qurbanıdır. Bu gün də bunu az miqdarda, az həcmdə görürük. Çünki artıq həqiqəti danmaq, gizlətmək mümkün deyil",– sözləri əslində bu gün dünyanın haqqı, ədaləti yox, işğalçını, özgə torpağını qəsb edəni dəstəklədiyini, müdafiə etdiyini bariz şəkildə göstərir. Ancaq gec-tez qələbə, uğur haqlının tərəfində olur. Azərbaycan da bu gün haqq savaşı, haqq mübarizəsi aparır, əzəli ərazisinin tapdaq altından çıxarılmasına, yağı çəngindən xilas edilməsinə çalışır və buna nail olcağı gün heç də uzaqda deyil.

O günü yaxınlaşdıran səbəblərdən biri də bütün dünyanın indi döyüşlər gedən bölgəni Azərbaycanın ayrılmaz hissəsi kimi tanıması, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən qərar və qətnamələrdə Dağlıq Qarabağın ölkəmizə məxsusluğunun təsdiqlənməsi, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində vurğulandığı kimi, erməni silahlı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz işğal altındakı torpaqlarımızdan çıxarılmasıdır. Bax, bu qeyd edilən haqq-ədalətə dünya birliyi uzun illər ərzində laqeyd, biganə münasibət bəsləsə də, Azərbaycanın, nəhayət, necə deyərlər, səbri tükəndi: Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-də Azərbaycana qarşı təxribat törədərək, hərbi obyektləri və mülki əhalini hədəfə alandan sonra ordumuz yuxarıda diqqətə çatdırdığımız beynəlxalq hüquqa əsaslanaraq, ərazi bütövlüyümüz uğrunda əks-hücuma keçməklə tarixi torpaqlarımızın yağılardan xilas etməyə başladı.

Şübhəsiz ki, Azərbaycan Ordusunun döyüş qabiliyyəti və əzmi, möhkəm maddi-texniki bazası, ordu-xalq-Prezident birliyi qısa müddətdə dövlətimizin ərazi bütövlüyünün təmin olunması istiqamətində möhtəşəm uğurları şərtləndirdi.

Prezident İlham Əliyev sentyabrın 27-də xalqa müraciətində də bu barədə dedi: "Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Dövlətimizin başçısı müsahibəsində Ermənistanın faşizm siyasəti aparması, qardaş Türkiyəyə, Azərbaycana daim nifrət aşılaması, uşaqlara türkləri düşmən kimi qələmə verməsi, əhalisinin beynini, düşüncəsini zəhərləməsi və bütün bunların təməlində dayanan işğalçılıq siyasətini davam etdirməsi barədə də ətraflı danışıb. Eyni zamanda, işğal altındakı bölgələrimizin sərvətlərinin, eləcə də Kəlbəcərin qızıl yataqlarının uzun illər ərzində istismar edildiyini diqqətə çatdıraraq deyib: "Mən bu toqquşmadan əvvəl verdiyim açıqlamalarda demişdim ki, bütün bu xarici şirkətlərə son xəbərdarlıq edirik – ya dayandırın bu fəaliyyəti, ya da biz sizi məhkəməyə verəcəyik. Məhkəmədə bizim sözümüz keçəcək. Çünki bu, qanunsuzdur. Oradan çıxarılan qızılları Ermənistan aparır xaricə satır və pul qazanır. Orada çıxan təbii qaynaqları, bizim torpaqdan əldə edilmiş məhsulu onlar Ermənistana daşıyırlar. Ona görə burada bir çox hədəflər var. Əsas məqsəd bu torpaqları əbədi Ermənistanın tapdağı altında saxlamaqdır. Onlar buna da nail ola bilmədilər".

Yeri gəlmişkən, rəsmi mənbələrə əsasən, Azərbaycanın Ermənistan tərəfindən işğal olunan ərazisində rəsmi məlumata görə 155 müxtəlif faydalı qazıntı yatağı var. Onlardan 5-i qızıl, 6-sı civə, 2-si isə mis yatağıdır. İşğal dövründə ermənilər tərəfindən həmin yataqlar talan edərək hasil etdikləri sərvətləri ixrac etməklə Ermənistan büdcəsinə külli miqdarda vəsait daxil edib. Həmin yataqların istismarına cəlb edilmiş "Sterlite Gold Ltd", "Sirkap Armenian", "Base Metals", "Manex and Valex", "Armenian Copper Programme" kimi onlarla şirkətin əksəriyyəti xarici erməni diasporu tərəfindən bura yönləndirilib, yaxud əcnəbi ermənilər tərəfindən idarə olunub.

Kəlbəcər rayonunun Ermənistanla sərhədində yerləşən və hazırda fəaliyyətini dayandıran Söyüdlü (Zod) qızıl yatağı isə 1976-cı ildən istismar olunub və Ermənistan tərəfindən işğal edilənədək burada 27 tondan artıq qızıl hasil edilib. Beləliklə, sənaye ehtiyatı 112,5 ton həcmində dəyərləndirilən Söyüdlü yatağı və 13 tondan artıq ehtiyata malik olduğu düşünülən Ağduzdağ və Tutxun yataqları, necə deyərlər, dədə malı kimi istismar edilib.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***